İSSN-0207-4710
2010-cu il

# GÖYƏRÇİN

4





Şeir



Nağıl



Hekayə

RAFİQ YUSİFOĞLU

# QUŞLAR DÜNYASI



## ZIĞ - ZIĞ

Yaraşıqlı bir quşsan,
Kəkillisən, qəşəngsən.
Tüklərin rəngbərəngdir,
Niyə alabəzəksən?

Nə üçün cığıldamaq
Gəlir sənin xoşuna?
Səs-küyün götürübdür
Bu meşəni başına.

Yoxsa cığıldayırsan
Gəlib səni görsünlər?
Bəlkə qəlbindən keçir
Sənə dən-su versinlər?

Onda niyə qorxursan,
Onda niyə qaçırsan?
Bir adam görən kimi
Qanadlanıb uçursan.

Niyə hay-küy salırsan,
Elə bil ki dardasan.
Gizlənsən də, çığırtın
Xəbər verir hardasan.



## QARATOYUQ

Sanki kol-kosa
Keşik çəkirsən.
Ora səkirsən,
Bura səkirsən.

Giləmeyvədən
Yeyib doyursan.
Səs eşidəndə
Qıqqıldayırsan.

Toyuq əfəldi,
Sənsə ayıqsan.
Qara toyuq yox,
Qaratoyuqsan.

Nəğmələrindən
Ləzzət alıram.
Sən oxuyanda
Heyran qalıram...



## ÇİL QARATOYUQ

Yaraşığısan
Bizim çöllərin.
Ağ sinəndə var
Qara çillərin...

Ancaq öyünmə,
Çil qaratoyuq!
Sən öz yerini
Bil, qaratoyuq!

Nə qədər uçsan,
Qanad çalsan da,
Qaratoyuqsan,
Çil-çil olsan da...





## TORAĞAY

Yenə də yaz gəlibdi,
Güllər ətir qoxuyur.
Torağaya baxın bir,
Necə qəşəng oxuyur?!

Başında kəkili var,
Nazlı-nazlı səkir o,
Taxıl zəmilərinə
Sanki keşik çəkir o.

Əcəb quşdu, siz onu
Görməzsiniz budaqda,
Gizlənməyi asandı,
Heç seçilmir torpaqdan.

Onun sevdiyi fəsil
Bir bahardı, bir də yay.
Ağacda yox, torpaqda
Yuva qurur torağay.

Dimdiyindən yayınmaz
Bircə cücü, bircə dən.
Əfəl görünsə belə,
Diribaşdı sərçədən.

Hava soyuyan kimi
Dəstə ilə uçur o.
Qış qapını almamış
Baş götürüb qaçır o.
Təzə bir yurd seçir o,
İsti yerə köçür o.

Qaldı gələn bahara
Torağayın gəlməsi
Ancaq qulağımızdan
Getmir onun nəğməsi...

## SƏRÇƏ

Sərçəkimilər çoxdu,
Ancaq sərçədən yoxdu.
Eşələnir, dənlənir,
Pırıldayır, şənlənir.
Gəzir həyət-bacada,
Cikkildəyir ucadan.
Başlasa sərçə xoru,

Səsdən özünü qoru,
Bir fit çalsan, uçar o,
Pırıldayıb qaçar o.
Köçməklə işi yoxdu
Yeri qar alsa belə.
O, çox dünyagörmüşdü
Balaca olsa belə.



Rəssam
İlqar

## QUQU QUŞU

Yaxşı tanıyın bu quşu,
Kələkbazdı ququ quşu.
Çox gözəldi, çox qəşəngdi.
Sanki bir dəstə çiçəkdi.
Xallı-xallı, çil-çildi o,
Qanad çalan bir güldü o.
Ancaq bala çıxarmağa
Yoxdu zərrəcə həvəsi.
Ayrı quşun yuvasında

Yumurtlamağa tələsir.
Özgəni zəhmətə salır.
Gələn bu «ququ bəlası».
Başqa yuvada «doğulub»
Yaşayır ququ balası.
Azadlığı sevir bu quş-
«Qıfıla, kilidə gəlmir».
Ona ana söyləməyə
Adamın dili də gəlmir...

